

Uşaqlıq hər kəs üçün bir nağıl, hər keçən gün sirlərlə dolu bir macəradır. Bəzən bu macəralar gözümüzün önündə baş verir, bəzən isə onları tapmaq üçün diqqətli olmaq lazımdır. Amma təsəvvür edin ki, sizin dostlarınız arasında ağıllı, macərapərəst bir oğlan – Murad, onun dostu Lalə və ətraflarında Nəzər, Ceyhun, Camal və Namiq var. Və Murad dostlarının köməyi ilə hər gün qarşılaşdığı müəmmalı hadisələri, qarşıya çıxan çətinlikləri dəf etməyə çalışır. Eynilə sevə-sevə oxuduğu və hər an xəyalən yanında canlandırdığı məşhur detektiv Şerlok Holms kimi!




REPORTAJ

# “Mən, Lalə, bir də Şerlok Holms”

Söhbət Elm və Təhsil Nazirliyinin dəstəyi ilə İctimai Televiziyanın layihəsi, ailəvi komediya və fantastika janrında çəkilən 12 bölümdən ibarət olan “Mən, Lalə, bir də Şerlok Holms” adlı serialdan gedir. “KAC Group Media” tərəfindən istehsal olunan serialın baş prodüseri Amiran Babayev, ideya müəllifi Tural Sevdimalı, quruluşçu rejissoru Rüfət Şahbazovdur. Teleserialın ssenari müəllifləri Tural Sevdimalı və Vüqar Hüseynovdur.

Bu gün orta məktəblərimizdə təhsil alan uşaq və yeniyetmələrin böyük maraqla baxdığı serial müəllimlərin məsləhət gördüyü, valideynlərin etibarını qazanan bir ekran işidir. Azərbaycan teleməkanında ilk uşaq serialı olduğunu nəzərə alaraq, teleserialın çəkiliş qrupu ilə görüşməyi qərara aldıq. Serialın baş prodüsseri Amiran Babayev bizi filmin qəhrəmanları olan uşaqlarla, həmçinin digər üzvləri ilə görüşdürdü. Görüş yerimiz isə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası oldu.

“Mən, Lalə, bir də Şerlok Holms” adlı 12 bölümlük ekran işi yay tətilini baba və nənəsinin yanında keçirən 7-ci sinif şagirdi Muradın nağılvari macəralarından bəhs edir. Murad kənddə yaşıdı Lalə və digər kənd uşaqları ilə dostlaşır. Lalə onu kənd həyatı, buraya xas xüsusiyyətlər barədə məlumatlandırır, Murad isə Laləni şəhərdən gətirdiyi qadjetlər və oxuduğu kitablardan öyrəndiyi maraqlı faktlarla hər gün təəccübləndirir.

Muradın babası Oqtay təqaüddə olan polis polkovniki, nənəsi Almaz xanım isə vaxtilə orta məktəbdə dərs demiş Azərbaycan dili və ədəbiyyat müəllimidir. Almaz müəllimin bədii ədəbiyyat nümunələri ilə zəngin, böyük kitabxanası var. Murad babasının evində qaldığı müddətdə hər gün demək olar ki, bir kitab oxuyur. Beləliklə, ekran əsərinin hər seriyası onun oxuduğu kitabların mövzusu üzərində qurulur. Oxuduğu bədii əsərlərin qəhrəmanları isə xəyalında canlanaraq ona gündəlik çətinliklərinin həllində yardımçı olurlar. İlk seriyalarda Muradı yayı kənddə keçirəcəyi fikri darıxdırdısa da, getdikcə izləyicilər onun artıq kənd həyatının gözəlliklərinə öyrəşdiyinin, burada yeni dostlar tapmasının və onlarla gözəl münasibət qurduğunun şahidi olurlar. Hər seriyada Murad Lalə ilə birlikdə kənddə baş verən qəribə və dolaşıq hadisələrin çözülməsi ilə məşğul olur və uşaqlar kənddə hamı tərəfindən sevilir. Bir sözlə, bölümlərin hər biri yeni sirr, yeni ipucuları və uşaqların kəşf etməli olduğu həyəcanlı hadisələrlə zəngindir.

“Mən, Lalə, bir də Şerlok Holms” serialında biliyin, oxumağın, savadlanmağın insan həyatındakı rolundan, uşaqlarda kitaba maraq hissinin gücləndirilməsindən söz açılır, tamaşaçılara uşaq və yeniyetmələrimizdə mütaliə mədəniyyətinin formalaşdırılması ilə yanaşı, milli-mənəvi, eləcə də ailə dəyərlərinə hörmət ruhunda tərbiyə olunması kimi bir sıra mühüm mesajlar ötürülür. Serial insanları qohumcanlılığa, mehribanlığa, dostpərvərliyə səsləyir, uşaqlıq illərimizin şirin xatirələrini yada salır.

İlk bölümü ötən ilin dekabrın 22-də İctimai Televiziyada nümayiş olunan və artıq 6 bölümü yayımlanan serial çox qısa bir zamanda tamaşaçıların rəğbətini qazanıb. Hər həftənin bazar günü evlərimizin qonağı olan “Mən, Lalə, bir də Şerlok Holms” hər bir ailənin böyük zövq və maraqla baxa biləcəyi teleserialdır.

“Mən, Lalə, bir də Şerlok Holms” serialında biliyin, oxumağın, savadlanmağın insan həyatındakı rolundan, uşaqlarda kitaba maraq hissinin gücləndirilməsindən söz açılır, tamaşaçılara uşaq və yeniyetmələrimizdə mütaliə mədəniyyətinin formalaşdırılması ilə yanaşı, milli-mənəvi, eləcə də ailə dəyərlərinə hörmət ruhunda tərbiyə olunması kimi bir sıra mühüm mesajlar ötürülür.

### Baş rolun 13 yaşlı qəhrəmanı

Serialın baş qəhrəmanı Muradı canlandıran Məhəmməd Kərimlinin 13 yaşı var. Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının 8-ci sinif şagirdidir. Deyir ki, elə ilk oxuyanda ssenari ona maraqlı gəlib: “Tam mənə uyğun idi, özü də baş qəhrəman. Əlbəttə ki, rolumu sevinə-sevinə oynadım. İki ay Balakənddə qaldıq. Mənim üçün bu seriala çəkilmək həm əyləncəli, həm də maraqlı idi”.

“Murad necə oğlandır?” - sualımıza Məhəmməd sanki roldaymış kimi özünü yığışdıraraq təmkinlə belə cavab verir: “Çox kitab oxuyan, mütaliə ilə məşğul olmağı sevən, güclü fantaziyaya malik, öz ağlı və zəkası ilə hamıya maraqlı olan bir oğlandır”. Məhəmməd deyir ki, bu serial ona kitab oxumağı sevdirdi və həyatda baş verən çətinlikləri məhz geniş dünyagörüşü olan, müxtəlif biliklərə sahib insanların həll edə biləcəkləri qənaətindədir.

### “Lalə də gündə bir oyun çıxarmasa söz olar...”

Serialın digər əsas qəhərəmanı kənd qızı Laləni oynayan Nigar Rzazadə Bakıdakı 2 nömrəli tam orta məktəbin 7-ci sinfində oxuyur. Deyir ki, əvvəllər model olmaq istəyirdi. Sonradan modelliyi aktrisalığa dəyişib. Serialla bağlı kastinqdə iştirak edərək baş rola seçilib: “İlk dəfə idi ki, serialda çəkilirdim. Rolum çox xoşuma gəlir, mən heç nədən qorxmuram. Hər şeylə maraqlanıram, müxtəlif məlumatlar əldə edirəm. Serialda bir yer var ki, anam mənə qarğalar haqqında bilmədiyim məlumatlar verir və mən bunu öyrənəndə deyirəm ki, qulaq gündə bir söz eşitməsə kar olar. Anam da bu sözümə cavab olaraq söyləyir ki, Lalə də gündə bir oyun çıxarmasa söz olar. Bu ifadə mənim çox xoşuma gəldi”.

Nigar söyləyir ki, Balakən rayonunda ilk dəfə idi olurdu və çəkilişlərin aparıldığı Katex kəndinin təbiəti çox gözəldir: “Çəkilişlərimiz zamanı ən yaddaqalan hadisə dostlarımızla birlikdə gecəni Lətif müəllimlə meşədə keçirməyimiz oldu. Bütün çəkiliş qrupu yanımızda idi və gecəni, demək olar ki, oyaq qaldıq, heç nədən qorxmurduq”.

Nigar serialdan necə ilhamlanıbsa, gələcəkdə aktrisa olmağı özü üçün qətiləşdirib. Özü də mənfi obrazlar oynamaq istəyir.

### “Mən kənd uşağıyam...”

Serialda Camal obrazını oynayan İbrahim Süleymanlı da Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının 8-ci sinif şagirdidir. Xanəndəlik üzrə təhsil alır, həm də “Oyuq” teatr studiyasının aktyorudur.

Bundan əvvəl də bir sıra seriallarda rol alıb. “Mən, Lalə, bir də Şerlok Holms” adlı ilk uşaq serialında yer almağından məmnundur. İbrahim öz obrazını belə xarakterizə edir: “Mən kənd uşağıyam. Kəndimizə Bakıdan Murad gəlir. Əlbəttə,

## Azərbaycanın ilk maarifləndirici uşaq serialı necə ərsəyə gəldi?





kənd uşağı kimi mənim üçün maraqlı olur ki, onun skuteri, planşeti, müxtəlif qadjetləri var, müasir texnologiyalardan necə səmərəli istifadə edir. Çoxlu kitab oxuyur. Onunla dost oluruq və birlikdə bir sıra hadisələrin iştirakçısına çevrilirik. Murad öz ideyaları, fantaziyaları ilə bizi çox təəccübləndirir”.

### “Fərahimin oğlu olsam da...”

Serialın ən maraqlı balaca qəhrəmanlarından biri də Ceyhundur. Bu obrazı oynayan Camal Babayev Bakıdakı 200 nömrəli məktəb-lisey kompleksində 4-cü sinifdə oxuyur. Ceyhun da bir sıra seriallarda çəkilib. Bu serial isə onun ilk böyük işidir. Serialda o da Murad kimi Bakıdan gəlib. Atası Fərahim sahibkardır və kənddə Cəlil babanın torpaq sahəsini ələ keçirib hotel tikdirmək istəyir.

Murad, Lalə və digər uşaqlarla birlikdə o da atasının bu istəyinə qarşı çıxır. Amma onun üzünə ağ olmaq da istəmir. Sadəcə müəyyən işlərdə uşaqlara yardım edir: “Ceyhun, əslində, obyektiv uşaqdır. Atasının kənd camaatının etirazına baxmayaraq çoxlu ağacların olduğu bir sahədə tikdirmək istədiyi hoteli o da istəmir: “Fərahimin oğlu olsam da, onun bu hərəkətini qəbul etmirəm. Həyatda belə bir hadisə mənim başıma gəlsəydi, təbii ki, onda da mən atamla razılaşmazdım. Təbiəti məhv etmək olmaz, əksinə, onu qorumalıyıq. Bu serialda da təbiəti qorumaq, ona həssaslıqla yanaşmalı olduğumuz mesajı verilir. Mən çox sevinirəm ki, belə bir uşaq serialında rol almışam. Görürəm ki, serialdan sonra tanıdığım uşaqlardan bəziləri mənə bənzəməyə çalışırlar, məktəbdə hamı hörmət edir. Həmyaşlarımın sevimlisinə çevrilməyim xoşuma gəlir”.

Camal gələcəkdə həkim olmaq istəyir.

### “Doğrudan, ağacdan yıxıldım”

Serialda Nəzər rolunu oynayan Səməd Yunuslunun da 13 yaşı var. Səməd də “Oyuq” teatr studiyasında aktyorluqla məşğul olur. Bir sıra seriallarda çəkilən balaca qəhrəmanımız Bakıdakı 336 nömrəli tam orta məktəbin 8-ci sinfində oxuyur.

Bildirir ki, oynadığı Nəzər obrazı dəcəldir, bir yerdə qərar tuta bilmir, özü də çox saf uşaqdır: “Mən ilk vaxtlar bir az Muradı qısqanıram. Çünki məndə olmayan, arzuladığım hər şey Muradda var. Onu yaxından tanıyandan sonra dostlaşıram və qısqanclığım ötüb keçir. Çəkilişlərimiz çox əyləncəli keçirdi. Mənim üçün ən yaddaqalan hadisə elə gecə çəkilişi zamanı ağacdan yıxılmağım oldu və təbii bir kadr alındı”.

### Ən böyük arzusu sevilən məşhur aktyor olmaqdır

Muradgilin komandasının sonuncu qəhrəmanı Rüstəm İsmayılzadə isə Namiq obrazını yaradıb. Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının 5-ci sinif şagirdi olan Rüstəm özü aktyor ailəsində dünyaya gəlib. O, Azərbaycanın Xalq artisti Qurban İsmayılovun oğludur.

Rüstəm deyir ki, bu serial ona növbəti dəfə aktyor kimi özünü sınamağa əla fürsət olub: “Əvvəllər də seriallarda çəkilmişəm. Kastinqdə iştirak etdim və serialda çəkilməyə qəbul etdilər. Doğrudan da, mənim üçün çox maraqlı təcrübə oldu”.

Namiqin ən böyük arzusu atasının davamçısı, hamı tərəfindən sevilən məşhur aktyor olmaqdır.

*Bəli, uşaqları dinlədik. Bəs görəsən, bu serialı araya-ərsəyə gətirən peşəkarlar nə fikirdədirlər?*

### “Bu serial uşaqlar üçün əsl təcrübə oldu”

Serialın quruluşçu rejissoru Rüfət Şahbazov “Mən, Lalə, bir də Şerlok Holms”u sadəcə bir layihə olaraq görmür, onun uşaqların dünyagörüşünün formalaşdırılmasında əhəmiyyətli rol oynadığına inandığını qeyd edir: “Bu, tamaşaçılara təqdim etdiyimiz Azərbaycanın ilk maarifləndirici uşaq serialıdır. Buna görə Elm və Təhsil Nazirliyinə, İctimai Televiziyaya öz təşəkkürümü bildirirəm. Onlar bizə belə bir gözəl ekran işini tamaşaçılarımıza təqdim etməyə imkan və şərait yaratdılar.

Bu serial uşaqlara nəyi aşılayır? Hansı mesajları verir?

Birinci, serial uşaqlara kitab oxumağın əhəmiyyətini, ikinci, uşaqlar arasında mehribanlığın, birgə əməkdaşlığın vacibliyini, üçüncüsü isə həyatın necə var olduğunu yox, necə olmalı olduğunu göstərdi. Bu gün ailələrimizdə balacalarımız böyüyür və seriala baxaraq gələcəkdə oradakı uşaq qəhrəmanlarına oxşamaq istəyəcək, ən çətin situasiyalardan necə çıxmağı öyrənəcəklər. Bilirsiniz, uşaqlara işığı göstərmək lazımdır. Uşaqlar bu serialda işıq gördülər. Ümidvaram ki, serial müasir dövrümüzün uşaqlarının ən yaddaqalan serialı kimi tarixdə qalacaq”.

Rüfət Şahbazov serialın çəkiliş proseslərindən də söz açır: “Bu serialı çəkərkən əsas məqsədimiz uşaqlara həm maraqlı, həm də öyrədici bir dünya təqdim etmək idi. Çəkiliş prosesində uşaqlarla işləmək özünəməxsus çətinliklər yaratsa da, bizə xoş idi, çünki onlar daha təbii, daha səmimi idilər və bəzən səhnələri onların enerjisinə uyğunlaşdırmaq lazım gəlirdi. Məhz bu səmimiyyət, içdən gələn təbiilik seriala xüsusi ruh qatır. Uşaqlar çəkiliş meydançasında təkcə aktyor deyil, eyni zamanda, öyrənən və kəşf edən iştirakçılar idilər. Bu serial onlar üçün əsl təcrübə oldu”.

### “Məktəblərimizdə kifayət qədər istedadlı uşaqlar var”

Serialın baş prodüseri Amiran Babayev “Mən, Lalə, bir də Şerlok Holms” serialının uşaqlara yeni biliklər öyrətməklə yanaşı, onların yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirdiyini vurğulayır: “Bizim məqsədlərimizdən biri də uşaqlara bir-birindən maraqlı və düşündürücü hekayələr təqdim etmək idi. Hər bir bölüm təkcə əyləncəli deyil, eyni zamanda öyrədici məqamlarla zəngindir. Serial təkcə maraqlı macəralarla yadda qalmır, eyni zamanda, uşaqlara vacib dəyərləri aşılamağa çalışır.

Amiran Babayev onu da qeyd edir ki, serialda Azərbaycan klassiklərinin və şifahi xalq ədəbiyyatının qəhrəmanlarının dünya ədəbiyyatının məşhur obrazları ilə bir araya gəlməsi, inteqrasiyası izləyicilərə mühüm mesajlar ötürür. Bu inteqrasiya uşaqlara milli-mənəvi dəyərləri qlobal kontekstdə tanıtmaqla yanaşı, fərqli mədəniyyətlər arasında oxşarlıqları və ortaq dəyərləri kəşf etməyə, onlara öz milli mədəniyyətlərinin dəyərini anlamağa və daha çox bağlanmağa kömək edir.

Teleserialda həmçinin “Eurovision 2011” təmsilçimiz, müğənni Eldar Qasımov da rol alıb.

Amiran Babayev serialda çəkilən uşaqların olduqca istedadlı olduqlarını, onların içərisindən gələcəyin tanınmış aktyorlarının çıxacağına ümidvar olduğunu deyir: “Bu gün bizim məktəblərimizdə kifayət qədər istedadlı uşaqlar var. Bizə çox xoşdur ki, belə uşaq və yeniyetmələri seriala çəkməklə onları xalqımıza tanıdırıq”.

### Şerlok Holms obrazını uşaqlar üçün canlandırmaq xüsusi məsuliyyət idi

Serialda Şerlok Holms obrazını canlandıran Əməkdar artist Rasim Cəfər bu rolu məhz uşaq teleserialında oynamağın həm maraqlı, həm də məsuliyyətli olduğunu söyləyir: “Şerlok Holms dünya ədəbiyyatının ən məşhur detektividir. Onun məntiqi düşüncəsi, iti zəkası və detallara diqqəti insanları həmişə valeh edib. Bu obrazı uşaqlar üçün təqdim etmək isə xüsusi yanaşma tələb edirdi. Onlar üçün Holms təkcə ağıllı bir detektiv yox, həm də əyləncəli, öyrədici və motivasiyaedici bir qəhrəman olmalı idi. Bu baxımdan, mənim üçün də çox maraqlı bir təcrübə oldu”.

Rasim Cəfər həmçinin uşaqlarla işləməyin aktyor üçün xüsusi çətinliklər və gözlənilməz anlar, eyni zamanda, xoş duyğular yaratdığını vurğulayır:

“Bilirsiniz ki, uşaqlar üçün nəzərdə tutulan serialın əsas qəhrəmanları da elə uşaqlardır. Uşaqlarla çəkiliş prosesi bəzən improvizasiya tələb edirdi. Onların təbii reaksiyaları hər an səhnəni dəyişə bilərdi və bu, bizi daim çevik olmağa məcbur edirdi. Amma məhz bu səmimiyyət seriala öz ruhunu qatır. Uşaqların hər birinin fərqli baxışı var və onların bu obrazlara yanaşmasını görmək çox maraqlı idi.

### Azərbaycan televiziya məkanında yeni dövrün başlanğıcı...

Doğrudan da belə bir layihənin gerçəkləşməsi, uşaqlar üçün keyfiyyətli və milli ruhlu kontentin ərsəyə gəlməsi böyük əmək tələb edir. “Mən, Lalə, bir də Şerlok Holms” təkcə bir macəra serialı deyil, həm də uşaqlar və yeniyetmələr üçün açılan yeni bilik dünyasıdır. Serial Azərbaycan televiziya məkanında yeni bir dövrün başlanğıcıdır və ümid edirik ki, sözün yaxşı mənasında qısa bir müddət ərzində adından söz etdirməyi bacaran bu ekran işinin davamı olacaq.

**Samirə KƏRİMOVA**